AMEA Nəsimi adına Dilçilik İnstitutu,
Dilçilik araşdırmaları, 2026, №2 *ISSN: 2664-5432*
Səhifə: 170-175
https://doi.org/10.59849/2664-5432.2026.2.170

Kəmalə ƏLİYEVA*

MORFOLOGİYA VƏ SİNTAKSİSİN QARŞILIQLI ƏLAQƏ PROBLEMİ XÜLASƏ

Morfologiya və sintaksisin qarşılıqlı təsiri və bir-birindən törəməsi məsələsi aktuallığı ilə seçilir. Konkret dilin morfologiyası da, sintaksisi kimi, universal strukturun parametrləşdirilməsini təmin edir. Morfosintaksis sintaktik funksiya baxımından nəzərdən keçirilən morfoloji səviyyədir. İfadə vasitələrindən asılı olmayaraq qrammatik strukturun müstəqil şəkildə öyrənilməsi mümkün olsa da, morfosintaktik təhlil məntiqi prinsiplərlə izah edilən kombinator model kimi qəbul edilir.

Açar sözlər: *morfosintaksis, sintaktik funksiya, morfoloji tipologiya, kombinator model.*

Morfologiya və sintaksisin sərhədləri ümumnəzəri konsepsiya çərçivəsində müəyyənləşdirilir. Bu mənada hər iki sahə arasındakı sərhəd konseptual baxımdan tədqiq edilir. [Демьянков, 1994: s.18]. Sintaksis sözün xarici funksiyalarını və cümlədə sözlər arasındakı münasibətləri, morfologiya isə sözlərin daxili strukturunu və paradiqma çərçivəsində sözlər arasındakı münasibətləri öyrənən fərqli sahələr olsa da, "Sintaktik morfologiya" nəzəriyyəsində [Harris, 1961] vahid cümlələrin morfoloji təşkilini, söz formalarının cümlələrdə birləşmə qanunauyğunluqları tədqiq edilir. Bu mənada morfosintaksis təhlil dil faktlarının aksioloji (semantik-referensial və məna yönümlü) baxımdan nəzərdən keçirilməsindən əvvəlki mərhələdir.

Morfologiya və sintaks dilin universal parametrlərini müəyyən edir. Lakin sözün daxili strukturu universal deyil və morfoloji meyar sintaktik təsvir ilə uzlaşmır. Morfologiyaya əsaslanan sintaksis isə universal hesab edilmir. Morfoloji tipologiyaya əsaslanan qeyri-universallıq sintaktik münasibətlərin müəyyənləşdirilməsini tələb edir.

Dünyanın dillərinin ilkin təsvirlərinin sayı artdıqca və dil müxtəlifliyinin sərhədləri haqqında təsəvvürlər dəqiqləşdikcə, tipoloji yönümlü tədqiqatlarda anlayışlardan istifadənin minimuma endirilməsi və ya ümumiyyətlə istisna edilməsi barədə çağırışlar daha çox səslənir. Bu çağırışlara əsasən, yalnız konkret tədqiq olunan dillərin müqayisəsi nəticəsində meydana çıxan anlayışlar saxlanılmalı, bütün dil faktları məcmusunu "universal şəkildə əhatə edən iddialı anlayışlardan imtina edilməlidir"[Е.А.Люткова, А.В.Циммерлинг, 2018; s.14].

* Bakı Dövlət Universitetinin doktorantı. E-mail: kemale655@gmail.com

Məlum olduğu kimi, cümlə üzvləri qarşılıqlı əlaqə əsasında qurulur. Məzmun və ifadə vasitələrinin vəhdəti cümlə komponentlərinin, eləcə də onların birləşdirilməsi proseslərinin qarşılıqlı əlaqəsində təzahür etdiyindən, morfosintaktik təhlil üçün ilkin material ifadə olunan fikirdir [Е.А.Лютикова, А.В.Циммерлинг, 2018; s. 25].

İfadə vasitələrindən asılı olmayaraq qrammatik strukturun müstəqil şəkildə öyrənilməsi mümkün olsa da, morfosintaktik təhlil məntiqi prinsiplərlə izah edilən kombinator model kimi qəbul edilir. Qrammatik məna tək-tək sözlərlə deyil, söz qruplarına aid olan ümumiləşdirilmiş mücərrəd mənadır [Kazımov, 2010; s.16]. Tədqiqatlarda qrammatik strukturu sadəcə sözlərin ardıcıllığı kimi deyil, mücərrəd strukturların ifadəsi kimi qəbul edilərək, dil iki əsas struktur səviyyəyə ayırılır:

1. **Tekto-qrammatika:** Sözlərin və ifadələrin bir-biri ilə necə birləşdiyini və mənanın necə formalaşdığını (semantikanı) tənzimləyir. Bu səviyyədə sözlərin cümlədəki ardıcıllığı deyil, struktur funksiyası əsas götürülür və sözlərin məntiqi birləşmə imkanları və valentlik idarə edilir.
2. **Feno-qrammatika:** Sözlərin cümlədə ardıcılıığı, morfoloji dəyişikliklər nəzərdə tutulur.

Müxtəlif dillərdə feno-qrammatika (söz sırası, qrammatik şəkilçilər) tamamilə fərqli olsa da, tekto-qrammatika (məntiqi struktur) eynidir. Bu yanaşma universal qrammatika strukturuna çox yaxındır.

Xüsusiyyət	**Ənənəvi formal qrammatika**	**Kombinator qrammatika**
Söz sırası	Cümlənin strukturunu təyin edən əsas amildir	Xarici görünüşdür (feno-qrammatika)
Məna əlaqəsi	Sintaktik əlaqələrə əsaslanır	Mücərrəd struktur ifadəsidir (tekto-qrammatika)
Tətbiqi	Qaydalar sistemi tələb olunur	Tekto-qrammatika ilə bir çox feno-qrammatika idarə olunur

Ənənəvi olaraq cümlə bir neçə arqument qəbul edən bir funksiya kimi görünür. Bu müddəa müasir kompüter dilçiliyində və formal qrammatika nəzəriyyələrində, xüsusən də k**ombinator** modelində geniş tətbiq olunur. Bu model təbii dilin sintaktik quruluşu ilə onun semantikası arasında əlaqə qurmağa kömək edir. Eyni zamanda, ümuni funksional xüsusiyyətlərə malik morfo-sintaksis əlaqə çərçivəsində müvafiq konstruksiyalar üzrə (*cümlədə sözlərin semantik əlaqəsindən asılı olaraq – K.Ə.*) qarşılaşdırılır – morfosintaktik təhlil aparılır və bu təhlil konstruksiyalar arasında sərhəd müəyyənləşdirmək üçün deyil. Morfologiya və sintaksisin qarşılıqlı təsiri və bir-birindən törəməsi məsələsi aktuallığı ilə seçilir. Bu təsir nəticəsində ismi və feili söyləmlər (söz birləşmələri), feilin çoxcəhətli zaman formaları, analitik konstruksiyaları, söyləmlərin (söz birləşməsinin) müxtəlif funksional tipləri formalaşır və konstruksiyaların ümumi mahiyyəti yalnız

funksional-semantik xarakter daşıya bilər. Məhz özünəməxsus leksik ifadəyə malik olan makrohadisə morfosintaktik strukturların müqayisəli təhlilinə yol açır.

Morfosintaksisin əsas vəzifəsi sözlərin seqmentləşdirilməsindən ibarətdir. Burada dil vasitələri ilə cümlələrin qurulması prosesi arasındakı əlaqə nəzərdən keçirilir. Qeyd edək ki, morfosintaksis təhlil metodu kimi dil faktlarının aksioloji (semantik-referensial və anlayış əsaslı) aspektdən araşdırılmasından əvvəl gələn mərhələdir. Bu təhlil aşağıdakı ardıcıllıqla həyata keçirilir:

1. Diqqət mərkəzində söz və ya morfem deyil, söz birləşməsi saxlanılır.
2. Söz birləşmələri feil, isim ilə bağlı və kateqoriyadankənar tiplər üzrə təsnif edilir.

Konkret dilin morfologiyası da, sintaksisi kimi, universal strukturun parametrləşdirilməsini təmin edir. Bu struktur – universal morfologiya – dil haqqında biliklərə (xüsusilə, morfoloji biliklərə) əsaslanan sistemin "üz qabığını", yəni xarici strukturunu təşkil edir. Sözün daxili strukturu qeyri-universal xüsusiyyət kimi göründüyündən, universal-sintaktik təhlil morfoloji tipologiyanı bir qədər kölgədə qoyur. Bu mənada, morfoloji-sintaktik əlaqələrin bir-birini əks etdirməsi morfoloji komponentdə variasiyanı məhdudlaşdırır və hər bir sintaktik törəməyə yalnız bir morfoloji formanın uyğunlaşdırılmasına imkan yaranır. Lakin bu məhdudlaşdırmanın yaratdığı nəzəri problem kifayət qədər ciddidir; belə bir yanaşma ismi birləşmənin sintaktik quruluşunun fərqli variasiyalarını ortaya çıxarır.

Sintaktik vahidləri "morfosintaksis" anlamda ifadə edən mofroloji kompleks sadə morfemlərin cəmindən ibarətdir; morfosintaksis sintaktik funksiya baxımından nəzərdən keçirilən morfoloji səviyyədir. Eyni zamanda, morfosintaksis sintaktik kateqoriyaların, funksiyaların və əlaqələrin ifadəsi zamanı morfemlərin (*və birləşmələrin – K.Əliyeva*) modifikasiyasını araşdırır. Bu halda sintaktik səviyyə digər səviyyələrdən əvvəl və onlardan asılı olmayaraq öyrənilir, bununla belə, morfoloji səviyyənin məlumatlarından mümkün qədər geniş istifadə olunur. Morfoloji göstəricilər də, məhz bu baxımdan sintaktik kateqoriya və funksiyaların işarələri kimi nəzərdən keçirilir; onlar sintaktik səviyyədə yerinə yetirdikləri funksiyaya uyğun olaraq qruplaşdırılır.

Morfologiyada daha mühüm öyrənmə obyekti vardır. Ad bildirən sözlər şəkilçi qəbul edərək kəmiyyətə, hala, şəxsə görə dəyişir, bu və ya digər şəxsə mənsub olan əşyanı bildirir. Hərəkət bildirən sözlər zamana, şəxsə görə dəyişir, şəkilçilər qəbul edərək müxtəlif şəkillərə düşür. Əlamət bildirənlər dərəcələr üzrə dəyişir. Morfologiyada sözlərin dəyişməsi, təsrifi məsələləri çox mühüm problemdir və hər bir söz qrupu, ilk növbədə, bu cəhətdən nəzərdən keçirilir. Hər bir söz qrupu cümlədə əsas və əlavə sintaktik vəzifə daşıyır.

Dil bütöv şəkildə nəzərdən keçirildikdə morfologiya sintaksisə tabe vəziyyətdə olur – Belə yanaşma tətbiqi dilçiliyin bəzi sahələrində, o cümlədən linqvistik pedaqogikada da səmərəli nəticələr verir: formallıqdan qaçmaq üçün çox vaxt məzmun hadisələrindən onların xarici ifadə vasitələrinə doğru hərəkət etmək daha məqsədəuyğun qəbul edilir.

Sintaktik quruluşun müstəqil şəkildə nəzərdən keçirilməsi yalnız bütövlükdə dilin arxitektonikasını anlamaq üçün deyil, həm də sintaktik səviyyəni müfəssəl şəkildə təsvir etmək üçün zəruridir. Lakin sintaktik faktlar ümumi və təxmini məlumat verən morfoloji səviyyədə birbaşa, tam və birmənalı qarşılıq tapmır. L.Tenyer sintaksisi daxili formanı öyrənən elm kimi nəzərdən keçirir. Bu baxımdan, sintaksis formal göstəriciləri – xarici formanı öyrənən morfologiyaya qarşı qoyulur. E.Sepirin şərhi ilə desək: "...bunlar əlaqələndirmə və ya ifadə üsulları, başqa sözlə, qrammatik "proseslər"dir". [Теньер; 1988, s.117] və uyğun olaraq, sintaksis kateqorial (statik) və struktural (dinamik-funksional) olmaqla 2 qrupa bölünür. Qrammatik baxımdan əhəmiyyətli olan hər şey sintaksisə, formal göstəricilər isə morfologiyaya aiddir. Kateqorial sintaksisə sintetik və ya analitik yolla ifadə edilməsindən asılı olmayaraq, konkret sözün qrammatik məzmunu ilə əlaqəli dil hadisələri daxil edilir. Struktural sintaksisə isə sözlər arasındakı əlaqələrin və bütövlükdə cümlənin qrammatik məzmunu ilə bağlı olan dil hadisələri daxildir. L.Tenyerin bu bölgüsü digər nəzəriyyəçilərin bölgüsündən məhz sintaksisin daxili bölgüsünə görə fərqlənir. L.Tenyerin nəzəriyyəsinə görə, sintaksis müstəqil xarakter daşıyır [Теньер; 1988, s.46-47] və morfologiya ilə nisbətdə ilkin mövqedə dayanır. Əlbəttə, sintaksisin strukturunda morfoloji göstəricilərdən istifadə olunur, lakin təsvir və təsnifatın əsasını məhz sintaktik kateqoriyalar və funksiyalar təşkil edir. Hər bir dil hadisəsi əvvəlcə sintaktik, sonra isə morfoloji baxımdan nəzərdən keçirilir. Belə bir fikir də vardır ki, ilkin mərhələdə cümlə, söz, səs fərqlənməmiş, tədricən cümlələr sözlər, sözlər səslər şəklində üzvlənmişdir[Kazımov, 2010; s.41].

Kateqoriya → ifadə vasitəsi və funksiya → ifadə vasitəsi istiqamətində (tamamlıqdan hal sonluqlarına, qoşmalara və s.) hərəkət qrammatik hadisələrin təbiətini müfəssəl şəkildə əks etdirir. Bu zaman sintaksisin əvvəl və morfologiyadan asılı olmamasının digər səbəbini də açıqlamaq zəruridir. Belə ki, formal göstəricilərdən kateqoriya və funksiyalara, başqa sözlə, xaricidən daxilə doğru hərəkət etdikdə bütün faktların və bütöv sintaktik sistemi əhatə etmək mümkün deyil – nəticə matamam (*fraqmentar – K.Əliyeva*) xarakter daşıyır. Fonoloji və morfoloji aspektlərdən fərqləndiyi üçün xarici formaya əsaslanan sintaktik təsvir mümkün deyil. Sintaktik hadisələr morfoloji vasitələrlə və daxili forma faktları xarici forma ilə əks olunmur və bu halda introspektiv metoddan – xarici formanın olmadığı bütün hallarda daxili formadan istifadə etmək lazımdır.

Morfoloji və sintaktik aspektlərin qarşılıqlı təsir və bölünməz bir elm kimi qəbul edən nəzəriyyələr çoxdur; qrammatika dilin formasını sintaqmatik və paradiqmatik aspektlərdən öyrənən bütöv bir elm sahəsi kimi tədqiq olunur.

Sözlərin dəyişməsi və cümlədə birləşməsi əlaqəli, bir-birilə bağlı proseslərdir və birlikdə dilin qrammatik quruluşunu təşkil edir, fikir mübadiləsini birlikdə təmin edir. Sözlər 3 prinsip əsasında nitq hissələri üzrə qruplaşdırılır:

1. Leksik-qrammatik mənasına görə
2. Morfoloji əlamətinə görə
3. Sintaktik vəzifəsinə görə.

Bu prinsiplərin 3-ü də nitq hissələrinin təsnifi üçün eyni prinsipə malik deyil;leksik-qrammatik məna və morfoloji əlamət əsas götürülür, sintatik vəzifə isə köməkçi prinsip hesab olunur [Kazımov, 2010; s.37]. Bu 3 prinsipin vəhdəti əsasında dilimizdə formalaşan nitq hissələri (isim, sifət, say, feil, zərf) üzrə bölgü dildə olan bütün sözləri əhatə edir və bu bölgüdə sözün öz leksik təbiətini dəyişmədiyi hallar əsas götürülür [Seyidov, 2010; s.85]. Nitq hissələrindən birinin – əvəzliyin morfoloji əlaməti və sintaktik vəzifəsi yoxdur. Əvəzlik digər nitq hissələrini əvəz edir və əvəz etdiyi nitq hissəsinin də mənasını, morfoloji əlamətini və sintaktik vəzifəsini daşıyır.

Dəyişmə və birləşmə təcrid edilmiş halda ünsiyyətə xidmət edə bilməz. Sözlərin dəyişməsi və birləşməsi qaydaları dildə sistem təşkil edir. Odur ki, bunlar qrammatikanın ayrı-ayrı şöbələrində – sözlərin dəyişməsi, təsrifi qaydaları morfologiyada, birləşmə qaydaları sintaksisdə öyrənilir. Morfologiya və sintaksis qrammatika elminin bərabərhüquqlu şöbələridir. Morfoloji təhlil sözlərin bu və ya digər elementləri qəbul edərək dəyişməsi sisteminə, sintaksis təhlildə cümlənin elementlərinə – birləşmə və cümlələri təşkil edən sözlərin əlaqələnməsi qaydalarına yönəlmiş olur. Belə ki, morfologiyanın söz üzərində başladığı təhlili sintaksis başa çatdırır; baxmayaraq ki, morfologiya da, sintaksis də sözü əsas götürür, lakin qrammatikanın bu şöbələrində sözə müxtəlif cəhətdən yanaşılır, dilin ümumi sistemində onların fərqli qarşılıqlı münasibətləri izah edilir. (Гвоздев, 1958; s.100). Sintaksisdə ümumiləşdirmə, mücərrədləşdirmə morfologiyadan daha genişdir.

Bir çox morfosintaktik tədqiqatlarda morfoloji və sintaktik faktlar birlikdə araşdırılır. Lakin bu yanaşma o qədər də məqsədəuyğun sayılmır, çünki müxtəlif səviyyələrin qarışdırılması onların elmi izahının müəyyən dərəcədə mürəkkəbləşməsinə səbəb olur. Bu mənada, reprezentasiya dilə xas olan xüsusi kodlaşdırma üsuludur; sintaktik vahidlər morfoloji vasitələrlə, morfoloji vahidlər isə morfonoloji (fonoloji) vasitələrlə və s. ifadə olunur. Təhlil üsulundan asılı olmayaraq əldə edilən nəticələrin təqdimatı sistemli və izahedici xarakter daşımalıdır. Bu isə yalnız müəyyən ardıcıllığa riayət edildiyi təqdirdə mümkündür. Dilin sintaktik quruluşunun ilkin təhlili morfologiyaya müraciət etmədən mümkün olmadığı kimi, sintaktik vahidlərin nəzərdən keçirilməsi və onların təsnifatı da həmin vahidlərin birləşmələrinin (*makrohadisənin – K.Əliyeva*) araşdırılmasını tələb edir.

ƏDƏBİYYAT:

1. Cəfərov C. Nitq hissələrində keçid prosesləri və konversiya. Bakı, 2009.
2. Kazımov Q. Müasir Azərbaycan dili (Sintaksis). Bakı, 2000.
3. Kazımov Q. Müasir Azərbaycan dili (Morfologiya). Bakı, 2010.
4. Qənbərov V. Müasir ingilis dilində ismin kəmiyyət formalarının kontekstual-funksional təhlili: Fil. elm. nam. dis. … avtoref. Bakı, 2008.
5. Mirzəzadə H. Azərbaycan dilinin tarixi morfologiyası. Bakı, 1962.
6. Seyidov Y. Əsərləri. 15 cilddə (IX c.) Bakı: Bakı Universiteti, 2010.
7. Гвоздев А.Н. Современный русский литературный язык, Москва, 1967. - 432 с.

8. Демьянков В.З. Морфологическая интерпретация текста и ее моделирование, М.: Изд-во МГУ, 1994. – 206 с.

9. Касевич В.Б. Семантика.Синтаксис. Морфология. Москва, 1988.

10. Лютикова Е. А., Циммерлинг А. В.Типология морфосинтаксических параметров: почему языки такие предсказуемые? Типология морфосинтаксических параметров// Государственный институт русского языка им. А. С. Пушкина 2018. Т. 1., вып. 1.

11. Сравнительно-историческая грамматика тюркских языков. Морфология, Москва, «Наука», 1988.

12. Теньер Л. «Основы структурного синтаксиса». Пер. с франц. Вступ. ст. и общ. ред. В. Г. Гака. — М.: Прогресс, 1988. — 656 с.

13. Ширалиев М. Ш., Севортян Э. В. (редакторы) Грамматика азербайджанского языка (фонетика, морфология и синтаксис). — Баку, 1971.

14.Harris, Methods in structural linguistics, Chicago, 1961

ПРОБЛЕМА ВЗАИМОСВЯЗИ МОРФОЛОГИИ И СИНТАКСИСА

АННОТАЦИЯ

Вопрос взаимодействия морфологии и синтаксиса, а также их взаимной обусловленности представляет особую актуальность. Морфология конкретного языка, как и его синтаксис, обеспечивает параметризацию универсальной структуры. Морфосинтаксис представляет собой морфологический уровень, рассматриваемый с точки зрения синтаксических функций. Несмотря на возможность самостоятельного изучения грамматической структуры независимо от средств её выражения, морфосинтаксический анализ рассматривается как комбинаторная модель, объясняемая на основе логических принципов.

Ключевые слова: *морфосинтаксис, синтаксическая функция, морфологическая типология, комбинаторная модель.*

THE PROBLEM OF THE INTERRELATION BETWEEN MORPHOLOGY AND SYNTAX

ABSTRACT

The interaction between morphology and syntax, as well as the issue of their mutual derivation, is of particular relevance. The morphology of a particular language, like its syntax, provides for the parameterization of a universal structure. Morphosyntax is the morphological level examined from the perspective of syntactic functions. Although grammatical structure can be studied independently of the means by which it is expressed, morphosyntactic analysis is regarded as a combinatorial model explained in terms of logical principles.

Keywords: *morphosyntax, syntactic function, morphological typology, combinatorial model.*